



HADİSƏLƏR KONTEKSTİNDƏ



***2025**-ci il aprelin 4-də Bakı şəhərində iki vacib beynəlxalq enerji tədbiri - Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları keçirildi. Tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev geniş və strateji məzmunlu çıxış etdi. Prezidentin nitqi enerji sahəsində Azərbaycanın prioritetlərini, tərəfdaşlıq strategiyasını, qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələri və qarşıdakı dövr üçün planları əhatə etdi. Bu çıxış təkcə Azərbaycanın enerji siyasətinin deyil, həm də beynəlxalq enerji gündəliyinin əsas istiqamətlərindən birinə çevrildi.*

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarının keçirilməsinin əhəmiyyəti çoxşaxəli və strateji xarakter daşıyır. Bu iclaslar Azərbaycanın həm ənənəvi enerji resursları (xüsusilə təbii qaz), həm də bərpaolunan enerji mənbələri sahəsində etibarlı və çoxşaxəli tərəfdaş kimi mövqeyini möhkəmləndirir. İki paralel enerji istiqamətinin - qaz və "yaşıl enerji"nin birgə müzakirə olunması Azərbaycanın enerji siyasətində inkişaf etmiş, çevik və uzunmüddətli düşünülmüş yanaşma sərgilədiyini göstərir. Bu iclaslar həm region ölkələri (Gürcüstan, Türkiyə, Balkan ölkələri), həm də Avropa İttifaqı ilə möhkəm əməkdaşlıq platformasının qurulmasına xidmət edir. Həm Cənub Qaz Dəhlizi, həm də "yaşıl enerji" ixrac marşrutları Azərbaycanı beynəlxalq enerji şəbəkəsinin mərkəzi roluna çıxarır. Rusiya-Ukrayna müharibəsi fonunda Avropa İttifaqı enerji təchizatında alternativ mənbələr və marşrutlar axtarışındadır. Azərbaycanın təşəbbüskarı olduğu bu toplantılar Avropanın enerji təhlükəsizliyində ölkəmizin rolunu nümayiş etdirir və Azərbaycanın strateji əhəmiyyətini daha da artırır. Yaşıl Enerji Məşvərət Şurasının 3-cü iclası Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizəyə ciddi yanaşdığını, "yaşıl enerji"yə keçiddə konkret hədəflər və layihələr təqdim etdiyini göstərdi. Azərbaycan özünü regional "yaşıl enerji" mərkəzi kimi təqdim etməyə başlayır. Ötən ilin noyabr ayında Bakıda keçirilən COP29 beynəlxalq konfransının uğurla keçirilməsi və əldə olunan nəticələrin yüksək səviyyədə olması bunun ən bariz nümunələrindən biridir.



# Enerji strategiyası və regional tərəfdaşlıq

Cənub Qaz Dəhlizi və "yaşıl enerji" sahələrində tutduğu mövqe və əldə etdiyi uğurlar son illərdə ölkəmizə həm regional, həm də qlobal miqyasda strateji önəmi artırıb. Azərbaycan layihənin təşəbbüskarı və əsas icraçısıdır. TANAP və TAP layihələrinin əsas investorlarından biri olan SOCAR vasitəsilə ölkəmiz layihəyə həm maliyyə, həm də logistik baxımdan liderlik edir. Hazırda illik 10 milyard kubmetr qaz ixracı reallaşır. Lakin Prezident İlham Əliyev TANAP-ın ötürücülük qabiliyyətinin 16 milyarddan 32 milyard kubmetrə çatdırılmasını prioritet elan edib. Ölkəmiz həm də külək, günəş və hidro enerji baxımından mühüm potensiala malikdir. Xüsusilə, Xəzər dənizində külək enerjisi üzrə resurslar beynəlxalq səviyyədə diqqət çəkir. Prezidentin açıqlamasına görə, 2030-cu ilə qədər 5 qiqavat "yaşıl enerji" ixracı hədəflənib. Bu, Azərbaycanın Avropa qaz bazarındakı payını artırmaq istiqamətində irəliyə doğru ciddi addımdır. Azərbaycan "Masdar" (BƏƏ), "ACWA Power" (Səudiyyə Ərəbistanı) və "bp" (Böyük Britaniya) kimi qlobal şirkətlərlə "yaşıl enerji" üzrə layihələr həyata keçirir. "Yaşıl Enerji Dəhlizi" layihəsinə gəldikdə isə bu Azərbaycan-Gürcüstan-Macarıstan marşrutu ilə "yaşıl elektrik" enerjisinin ixracını əhatə edir. Avropa Komissiyası bu layihəni prioritet layihə elan edib. Azərbaycandan "yaşıl enerji"nin tədarükünə maraq artır və ölkəmizin Avropa enerji bazarına yeni statusla daxil olması Avropa İttifaqı ilə daim inkişaf edən strateji tərəfdaşlığımızın əsasını təşkil edir. Azərbaycan alternativ mənbələr və marşrutlarla Avropanın enerji təchizatını davamlı şəkildə şaxələndirən ölkədir. Bir sözlə, Azərbaycan "yaşıl enerji" ölkəsi kimi inkişafı ilə bağlı strateji məqsədlərini həyata keçirmək əzmindədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın enerji təhlükəsizliyi sahəsində görülmüş işlər mühüm əhəmiyyət kəsb edir. Vətən müharibəsində qazandığımız qələbədən sonra ölkəmizdə "yaşıl enerji" layihələrində yeni mərhələnin başlanması isə bu sahədə qarşıya qoyulmuş hədəfləri daha da aktuallaşdırıb. Ötən dövrdə paytaxt Bakı ilə yanaşı, ölkəmizin digər bölgələrində də bərpaolunan enerji layihələri üçün potensial ehtiyat bir daha nəzərdən keçirilib, bu istiqamətdə müvafiq addımlar atılıb. Azərbaycanın neft-qaz sahəsində, xüsusən avropalı tərəfdaşlarla uğurlu əməkdaşlığı enerji resursları ixrac edən istənilən ölkə üçün nümunədir. Azərbaycanın digər ölkələrlə müqayisədə üstünlüyü regionda "yaşıl enerji"nin inkişafına yönəlmiş layihələrin artıq işə salınmasından ibarətdir. Özünü ənənəvi resursların etibarlı təchizatçısı kimi təsdiqləmiş Azərbaycan əldə olunanlarla kifayətlənmir. Ölkənin "yaşıl enerji" ixracı üzrə iddialı planları geniş vüsət alır və artıq konkret təşəbbüslər irəli sürülüb. Qarabağı "yaşıl enerji" zonası elan edən Azərbaycan dekarbonizasiya, qlobal tendensiyalara doğru səylər və öz iqtisadiyyatının inkişafı istiqamətində mühüm addımlar atıb. Bu gün Azərbaycanda, o cümlədən işğaldan azad olunmuş torpaqlarda həyata keçirilən irimiqyaslı layihələr ölkənin gələcəkdə, həmçinin alternativ enerji istehsalçısı və ixracatçısına çevrilməsini təmin edəcək. İşğaldan azad olunmuş torpaqlarda həyata keçirilən ən mühüm bərpaolunan enerji mənbələri layihələrindən biri Britaniyanın bp şirkəti ilə günəş enerjisinin istehsalı üzrə birgə layihədir. Elektrik stansiyasının artıq iki il sonra tam fəaliyyətə başlayacağı gözlənilir. Bu miqyasda şirkətin həyata keçirdiyi layihə Azərbaycanın bərpaolunan enerji potensialının yüksək olduğundan, ölkəmizin etibarlı və stabil tərəfdaşa çevrildiyindən xəbər verir.

Ölkəmiz Avropanın enerji təchizatının mənbə və marşrutlarla diversifikasiyasının yeni xəritəsini tərtib edir və təbii qazla yanaşı, irəlidə "yaşıl enerji" və hidrogenin də əsas tədarükçülərindən biri olacaq. Cənub Qaz Dəhlizinin genişləndirilməsi, Yaşıl Enerji Dəhlizinin yaradılması enerji siyasətimizin başlıca prioritetidir. Bu baxımdan, yeni "yaşıl enerji" dəhlizi dünyada baş verən enerji böhranları və enerji asılılığı kontekstində Avropa üçün kritik əhəmiyyət daşıyır. Bu layihə Avropa İttifaqının Rusiya enerjisindən asılılığını azaltmaq cəhdinin bir hissəsidir. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Buxarestdə Sazişin imzalanması mərasimi ilə bağlı plenar iclasda bildirib ki, Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. O, sözügedən sənəddə bərpaolunan enerjiyə geniş diqqət ayrılmasından məmnunluğunu ifadə edərək deyib: "Bərpaolunan enerji mənbələrinin artmaqda olan payını inteqrasiya etmək üçün bizə güclü elektrik enerjisi interkonnektorları lazımdır. Məhz buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Mən, sadəcə, onu deyə bilərəm ki, bu, çox iddialı bir layihədir. Bu layihə bizi həm rəqəmsal kommunikasiya, həm də enerji üçün Qara dənizin hər iki tərəfindən, həmçinin Xəzər dənizi regionu ilə bağlayacaq".




Prezident İlham Əliyev "yaşıl enerji" gündəminin vacibliyini qəbul etməklə yanaşı, ənənəvi enerji resurslarının da hələ uzun müddət enerji təhlükəsizliyinin ayrılmaz tərkib hissəsi olaraq qalacağını bildirdi. Dövlət başçısı haqlı olaraq Avropada geniş yayılmış "yaşıl gündəm"ə baxmayaraq, faydalı qazıntı hasilatçılarının və ənənəvi enerji ixracatçılarının marginallaşdırılmaması çağırışı etdi. Azərbaycan bu baxımdan balanslı yanaşmanı dəstəkləyir: bir tərəfdən "yaşıl enerji"yə böyük sərmayələr qoyur, digər tərəfdən isə ənənəvi enerji ehtiyatlarını da etibarlı şəkildə bazara çıxarır. Prezident əminliklə bildirdi ki, hələ bir neçə il bu sahəyə tələbat davam edəcək və Azərbaycan bu tələbatı qarşılamağa hazırdır və xüsusi vurğuladı ki, Azərbaycan və Avropa Komissiyası arasında energetika sahəsində imzalanmış strateji tərəfdaşlıq memorandumu çərçivəsində son illər ərzində Azərbaycanın Avropaya qaz ixracı təxminən 60 faiz artıb. Bu rəqəm təkcə enerji sahəsində deyil, siyasi və iqtisadi baxımdan da böyük əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə təkcə təchizatçı deyil, həm də regional enerji qovşağı rolunu oynayır. Prezident İlham Əliyevin dediyi kimi, bu artım təkcə Azərbaycana deyil, Avropaya da enerji təhlükəsizliyi baxımından böyük fayda gətirir.

Yaşıl Enerji Məşvərət Şurasının 3-cü iclasında Azərbaycandan Avropaya uzanacaq "yaşıl kabel" layihəsinin müzakirə olunması, rəsmi Bakının bərpaolunan enerji sahəsində də ciddi planları və imkanları olduğunu göstərir. Prezident İlham Əliyev bu məsələni çıxışında qeyd edərək, Azərbaycanın günəş, külək və hidroenerji potensialını Avropa bazarına çatdırmaq əzmini ifadə etdi. Xəzər dənizində külək enerjisi üzrə irihəcmli layihələrə start verilməsi, ölkənin cənubunda günəş enerjisi imkanlarının araşdırılması və bu istiqamətdə xarici sərmayədarlarla əməkdaşlıq, Azərbaycanın "yaşıl enerji" sahəsində regional liderə çevrilməsi yolunda atılmış mühüm addımlardır. "Biz öz sərmayələrimizlə fəal şəkildə inkişaf edirik" - bu fikir Prezident İlham Əliyevin enerji sektorunda daxili potensiala, milli imkanlara və strateji idarəetməyə inamın bariz nümunəsi idi. Azərbaycanın dövlət neft və qaz şirkətləri, eləcə də özəl sektor bu sahəyə böyük və davamlı sərmayələr yönəldir. Hazırda həyata keçirilən layihələr təkcə mövcud imkanların reallaşdırılması deyil, həm də gələcək nəsillər üçün etibarlı enerji sisteminin qurulması məqsədinə xidmət edir. Həmçinin bu investisiyalar ölkənin enerji diplomatiyasını gücləndirir və regional nüfuzunu artırır.

Prezident İlham Əliyev çıxışında Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 11-ci dəfə Bakıda keçirilməsini Azərbaycanın bu sahədəki liderliyinin və beynəlxalq etibarının göstəricisi kimi qiymətləndirdi. Cənub Qaz Dəhlizi yalnız texniki və iqtisadi layihə deyil, həm də siyasi və geostrateji əhəmiyyətə malikdir. Layihənin uğuru müxtəlif ölkələrin, o cümlədən Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və digər Avropa dövlətlərinin səmərəli əməkdaşlığından asılı olub. Prezident bu məqamda bir daha vurğuladı ki, enerji təhlükəsizliyi təkcə enerji resurslarının mövcudluğu ilə deyil, həm də bu resursların etibarlı yollarla, sabit tərəfdaşlıq prinsipləri əsasında çatdırılması ilə təmin olunur. Cənub Qaz Dəhlizi bu mənada XXI əsrin ən uğurlu və strateji enerji layihələrindən biridir. Prezident İlham Əliyev qeyd etdi ki, enerji layihələrinin uğuru yalnız qarşılıqlı inam və koordinasiyalı əməkdaşlıqla mümkündür. "Əməkdaşlıq olmadan enerji təhlükəsizliyi layihələrinin heç biri mümkün olmazdı". Azərbaycanın uzun illər ərzində etibarlı tərəfdaş kimi çıxış etməsi faktı beynəlxalq aləmdə də etiraf olunur. Ölkəmiz zamanında və şəffaf şərtlərlə enerji resurslarını təchiz etməklə, qlobal enerji bazarının sabitliyinə töhfə verir. Bu, həm də ölkənin siyasi sabitliyi və iqtisadi inkişafı ilə birbaşa bağlıdır.

Prezident vurğuladı ki, mövcud qaz boru kəməri sisteminin genişləndirilməsi zəruridir və bu sahədə bütün tərəfdaş ölkələrlə birgə səylər göstərilməlidir. Yeni enerji ehtiyatlarının istismara verilməsi gələcəkdə Azərbaycanın ixrac imkanlarını artıracaq. Xüsusilə, "Azəri-Çıraq-Günəşli" yatağının Dərin Qaz Strukturu üzrə bu il başlanacaq hasilat bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bundan əlavə, yaxın bir neçə ildə yeni neft və qaz yataqlarının istismarı da gözlənilir ki, bu da Azərbaycanın enerji sektorunun davamlı inkişafını və ixrac potensialının artırılmasını təmin edəcək. Bu layihələrin həyata keçirilməsi Azərbaycanın iqtisadi müstəqilliyini daha da gücləndirəcək.

Prezident İlham Əliyevin 2025-ci il aprelin 4-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarının açılış mərasimindəki çıxışı Azərbaycanın enerji siyasətinin strateji konturlarını aydın şəkildə ortaya qoydu. Bu çıxışda həm klassik enerji resurslarının, həm də bərpaolunan mənbələrin tarazlı inkişafı, beynəlxalq əməkdaşlığın əhəmiyyəti, sərmayə siyasəti və regional təhlükəsizlik məsələləri əhatəli şəkildə təhlil olundu. Bu çıxış, eyni zamanda Azərbaycanın nəinki enerji tədarükçüsü, həm də enerji sabitliyinin və əməkdaşlığının memarı olduğunu sübut etdi. Beləliklə, Azərbaycan təkcə bu günün deyil, həm də sabahın enerji xəritəsini formalaşdıran ölkə olaraq öz mövqeyini daha da möhkəmləndirir.

**Zahid CƏFƏROV,**
**BDU-nun Hüquq fakültəsinin professoru, h.e.d, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Hüquq Komissiyasının və Böyük Qarakilsə rayon icmasının sədri.**



# ECO ilə möhkəmlənən strateji əməkdaşlıq

***Ö**tən illər ərzində Azərbaycan ikitərəfli və çoxtərəfli formatlarda uğurlu əməkdaşlıq körpüləri quraraq beynəlxalq əlaqələr şəbəkəsini genişləndirib. Diplomatik təmsilçilik institutlarının artması ölkəmizin səsinin həm bölgədə, həm də qlobal miqyasda daha aydın şəkildə eşidilməsinə şərait yaradıb. Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etdikdən dərhal sonra beynəlxalq və regional təşkilatlarla əməkdaşlığa böyük önəm verib. Həmin illərdə Azərbaycanın qoşulduğu ilk təşkilatlardan biri İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO / İƏT) olub.*

Hökumətlərarası qurum kimi 1985-ci ildə Türkiyə, İran və Pakistan tərəfindən iqtisadi, texniki və mədəni sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə yaradılan ECO 1964-1979-cu illərdə fəaliyyət göstərmiş Regional Əməkdaşlıq və İnkişaf Təşkilatının varisidir. 1992-ci il noyabrın 28-də Azərbaycan, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistan təşkilata qoşulandan sonra ECO-nun üzv ölkələrinin sayı 10-a yüksəlib. Təşkilatın genişlənməsini rəsmiləşdirən həmin tarix qurumun təqvimində "ECO günü" kimi qeyd olunur. 1993-cü ildə BMT Baş Assambleyasının 48-ci sessiyasında ECO BMT-də, 1994-cü ildə isə İslam Konfransı Təşkilatında müşahidəçi statusu alıb. ECO-ya üzv dövlətlər Azərbaycan və Ermənistan arasında keçmişdə qalmış Qarabağ münaqişəsinin həllində hər zaman ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşıblar.

İqtisadi Əməkdaşlıq Təşkilatı ümidverici ticarət imkanları ilə zəngindir. Yaşının az olmasına baxmayaraq, ECO-nun beynəlxalq miqyasda nüfuzu getdikcə artır. Son 33 il ərzində üzv dövlətlər birgə səylərlə regionun inkişaf sürətini artırmaq yönündə əməkdaşlıq edirlər. ECO-ya üzv ölkələr əsasən kənd təsərrüfatı, sənaye, nəqliyyat, rabitə, infrastruktur, ictimai işlər, elm, təhsil, mədəniyyət, energetika və narkotik maddələrin yayılmaması sahələrində əməkdaşlıq edirlər. Təşkilatın bu məsələlər üzrə fəaliyyət göstərən 8 texniki komitəsi var. Komitələr ildə bir dəfə toplanır. ECO Nazirlər Şurası da ən azı ildə bir dəfə yığıncaq keçirir. Qurum üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasından ibarətdir. Şura təşkilatın fəaliyyət siyasətini, Regional Planlaşdırma Şurasını, Müavinlər Şurasını müəyyən edir. Mənzil-qərargahı Tehranda yerləşən Müavinlər Şurası ECO ölkələri səfirlərindən ibarətdir.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində qurduğu əlaqələr ölkənin həm regional, həm də beynəlxalq iqtisadi münasibətlər sistemində fəallığını və nüfuzunu bir daha təsdiqləyir. 2024-cü il dekabrın 3-də İranın Məşhəd şəhərində keçirilmiş İƏT-in Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasında Məşhəd Bəyannaməsi qəbul olunub. Həmçinin 2025-ci ildə təşkilatın 17-ci sammitinin Azərbaycanda keçiriləcəyinə qərar verilib.

2024-cü il noyabrın 15-də Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatı ilə BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO) birgə təşəbbüsü ilə "Təmiz Enerji Mərkəzi"nin (CECECO) açılışı gerçəkləşib. Bundan əlavə, 2024-cü ildə Azərbaycan İƏT-in bir sıra mötəbər tədbirlərinə ev sahibliyi edib - mayın 2-3-də 1-ci Tur Operatorları Forumu, oktyabrın 4-də isə Beyin Mərkəzlərinin 3-cü Forumu ölkəmizdə keçirilib.

Azərbaycana rəhbərlik etmiş şəxslərdən ilk dəfə ümummilli lider Heydər Əliyev 1996-cı ildə Aşqabadda ECO-nun IV sammitində iştirak edib. Görüşdə nəqliyyat və kommunikasiyanın inkişafına dair (1998-2007-ci illər) proqram qəbul olunub. Ulu öndər, həmçinin 2002-ci ildə İstanbulda keçirilən İƏT-ə üzv dövlətlərin dövlət və hökumət başçılarının 7-ci Zirvə Görüşündə qurumun daha səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə Tədqiqat Mərkəzinin Bakıda yaradılması təklifi ilə çıxış edib. Bu təklif Azərbaycanın elmə və analitik düşüncəyə verdiyi önəmin, eləcə də təşkilat çərçivəsində əməkdaşlığı elmi əsaslarla inkişaf etdirmək istəyinin bariz nümunəsi idi. Üstündən bir neçə il keçməsinə baxmayaraq, bu ideya unudulmadı. 2006-cı ildə Bakıda keçirilmiş 9-cu Zirvə Görüşündə Prezident İlham Əliyev sözügedən təşəbbüsü bir daha gündəmə gətirərək onun aktuallığını və zəruriliyini vurğuladı. Nəhayət, 2021-ci ilin martında Türkiyənin sədrliyi ilə videoformatda keçirilmiş 14-cü Zirvə Görüşündə bu təşəbbüs reallığa çevrildi - Tədqiqat Mərkəzinin nizamnaməsi imzalandı. Mərkəzin başlıca missiyası iqtisadi tədqiqatlara əsaslanan regional əməkdaşlığın qurulması üçün təşkilata, eləcə də üzv ölkələrə yardım etməkdir.

Ümumiyyətlə, 2021-ci ildə ECO çərçivəsində alınan qərarlar son dərəcə müsbət hadisə kimi dəyərləndirilə bilər. 2021-ci il 28 noyabrda Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında "Aşqabad fəaliyyət konsensusu" adlı yekun bəyannamə tamamilə ölkəmizin maraqlarına xidmət edir. Sənəddə işğal olunmuş ərazilərin azad edilməsi münasibətilə Azərbaycan Hökumətinə və xalqına təbrik ünvanlanıb. Bunun mehriban qonşuluq münasibətlərinin qurulması yolu ilə Qafqaz regionunda davamlı sülhə və iqtisadi tərəqqiyə yol açacağına inam bildirilib. Həmçinin üzv dövlətlər azad edilmiş ərazilərdə yenidənqurma layihələrinə və işlərinə sərmayə yatırmaq imkanları barəsində çağırış edib. Bundan başqa, ECO-da qəbul edilən hesabatlarda "Zəngəzur dəhlizi" termininin qəbuluna nail olunub ki, bu da rəsmi Bakının uğurlu xarici siyasət yürütməsindən xəbər verir.

Azərbaycan xarici siyasətində ECO-ya üzv ölkələrlə əlaqələrə önəm verməsini Prezident İlham Əliyev çıxışında da bildirib: "Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Biz, həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə səmərəli əməkdaşlıq edirik".

Qeyd edək ki, Azərbaycanın enerji və nəqliyyat sahələrində strateji mövqeyə sahib olması ECO-dakı mövqeyini daha da gücləndirib. Ölkənin zəngin təbii sərvətləri, xüsusilə enerji ehtiyatları, habelə əlverişli coğrafi mövqeyi onu təkcə Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının aparıcı tranzit və enerji mərkəzlərindən birinə çevirib. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti və Cənub Qaz Dəhlizi kimi irimiqyaslı layihələr Azərbaycanın bu sahədəki liderliyini açıq şəkildə ortaya qoyur. Həmin layihələr, eyni zamanda İqtisadi Əməkdaşlıq Təşkilatı coğrafiyasında enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rola malikdir. Nəqliyyat sektorunda da Azərbaycan bölgənin qovşağı rolunu oynayır. Ölkəmiz həm Şimal-Cənub, həm də Şərq-Qərb nəqliyyat dəhlizlərində fəal iştirak edir. İnkişaf etmiş logistika infrastrukturu, müasir liman və dəmir yolu sistemləri sayəsində Azərbaycan region ölkələri ilə yanaşı, Avropa və Asiyanın iqtisadi bağlantısında əsas körpülərdən birinə çevrilib. Xüsusilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Orta Dəhliz kimi strateji təşəbbüslər çərçivəsində Azərbaycanın fəallığı danılmazdır.

Son illərdə Azərbaycanın "yaşıl enerji" sahəsində atdığı addımlar rəğbətlə qarşılanır. ECO çərçivəsində həyata keçirilən layihələr sırasında Azərbaycanın təşəbbüskar rolu xüsusi qeyd olunmalıdır. Məhz bu baxımdan son illərdə Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında enerji sistemlərinin inteqrasiyasına dair imzalanmış sənəd böyük əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq regionda alternativ enerji mənbələrinin effektiv istifadəsinə, enerji təhlükəsizliyinin gücləndirilməsinə və dayanıqlı gələcəyin təmin olunmasına xidmət edir. Bununla yanaşı, Bakıda ECO regionu üçün "Təmiz Enerji Mərkəzi"nin yaradılması ilə bağlı aparılan müzakirələr Azərbaycanın bu sahədəki liderliyini açıq şəkildə nümayiş etdirir. Azərbaycanın "yaşıl enerji"yə yönəlik bu baxışı ölkənin beynəlxalq platformalarda qazandığı etimadı daha da möhkəmləndirir və onu regional enerji siyasətində aparıcı mövqeyə yüksəldir.

**Musa BAĞIRLI,**
**"Respublika".**